# İrəvanda doğulmuş məşhur maarifçi "Bağçaban" kimdir...

**İlin əvvəlində redaksiyanın tərtib etdiyi plana uyğun olaraq, "İrəvanda izim qaldı" rubrikasında 1885-ci ildə İrəvanda anadan olan Cabbar Əsgərzadə Acizdən (Bağçaban) danışacağıq. İrəvanda, bütövlükdə Qərbi Azərbaycanda doğulan, bu torpaqda dil açan, fəaliyyət göstərən şəxsiyyətlərin geniş ictimaiyyətə tanıdılması zəruridir.**

Tanınmış Azərbaycan pedoqoqu Mirzə Cabbar Əsgər oğlu Əsgərzadə Bağçaban 1886 və ya 1885-ci ildə İrəvan şəhərində anadan olub, 25 noyabr 1966-cı ildə Tehranda vəfat edib. Qərbi Azərbaycanda doğulan Bağçabanın fəaliyyətinin xeyli bir hissəsi Cənubi Azərbaycanla bağlı olub. Tədqiqatçıların yazdığına görə, İranda ilk dəfə uşaq bağçası və lal-karlar məktəbin təsisçisi, İranda ilk uşaq kitabının müəllifi və naşiri, həmçinin, farsca işarə dilinin yaradıcısı məhz Bagçaban olub.

Təqiqatçılar qeyd edirlər ki, o, ilk təhsilini İrəvanda mollaxanada alıb. Atası Əsgər İrəvanda memarlıq və qənnadıçılıqla məşğulluğu ilə tanınırdı, Cabbar da gənc yaşlarında bu peşələrə yiyələnir.

### Uşaqların təlim-tərbiyəsinə xüsusi fikir verdi, qızlara gizlin dərs keçdi...

Tədqiqatçılar yazırlar ki, uşaqların və qızların təlim-tərbiyəsinə çox önəm verən Mirzə Cabbar Əsgərzadə gəncliyindən onlara dərs deməyə başlayıb. Yaşadığı dövrün mühafizəkarlıq şəraitinə və risklərə baxmayaraq gizlicə qızlara evdə dərs deyib, bütün ömrü boyunca onların haqlarını müdafiə edib. Qadınların haqq və hüquqları uğrunda mübarizə aparan Cabbar Bağçabanın onlarla yetirməsi olub ki, onlar həyatlarını elmə, maarifə bağlayıblar... Qadının elmli, savadlı olması əlbəttə, bütün bəşəriyyət üçün xüsusi dəyərə malikdir...Bunu görkəmli pedoqoq çox dərindən anlayırdı.

### Həbsxanada qəzet çıxardı...

Tədiqatçıları çox maraqlı fakt təqdim edir. Yazılanlara görə, Bağçaban ilk qəzetini həbsxanada çıxarıb. 1905-ci ildə İrəvanda erməni-müsəlman çaxnaşmalarında ictimai fəallığına görə bir neçə aylıq həbs olunan Bağçaban həbsxanda "Molla nəhib" və "Mollabaşı" adlı həftəlik dərgilər nəşr etdirir. Dərgilərə yazıları özü yazıb, rəsmləri də özü çəkib. "Qafqaz" qəzetinin müxbirlərindən biri kimi jurnalistlik fəaliyyətinə başlayıb. "Molla Nəsrəddin" məcmuəsində də şeir və məqalələrlə çıxış edib. İrəvan qubernatorunun 21 yanvar 1914-cü il tarixdə Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadəyə verdiyi icazəyə əsasən onlar həmin il fevralın 22-də satirik "Lək-lək" jurnalının ilk nömrəsini buraxıblar. "Lək-lək"in cəmisi 8 nömrəsi işıq üzü görüb. Bu dərgi dili, üslubu, ifadə tərzi, orda yayımlanan fleytonların məzmununa görə "Molla Nəsrəddin" dərgisinə çox bənzəyirdi.

Mətbuatda Cabbar Bağçabanın özünün həyatı haqda danışığı yer alıb. O, qeyd edirdi: "Mən 1885 - ci ildə İrəvanda anadan olmuşam. Babam Rıza, Təbrizli idi və atam Əsgər İrəvanda qənnadlıq və memarlıq ilə məşğul olurdu. Anamın adı Bənövşə idi. Atam da hamı kimi onu sayqı üzündən Kəlbə Bənövşə xanım səslərdi. Yazıb oxumaq bilmədiyinə baxmayaraq aydın və gözü açıq bir qadın idi... Təhsilimi qədimi üsul üzərə, məscidlərdə (mollaxanalarda) almışam. İrəvanda Şeyx Əli Əkəbər adlı bir molla, atamı inandırmışdı ki, yeni açılan dövlət məktəblərinə gedərsəm dindən dönəcəyəm. Buna görə onun mollaxanasına getməli oldum... 15 yaşında ikən yoxsulluq üzündən təhsili buraxmalı olub və atamın peşəsində çalışmağa başladım.

Mollaxanaya gedən zaman molla "təlb ələlm fərizətün əla küll müslim və müslimat"ın mənasını deyəndə , qızların məktəbə getməmələrini və anam ilə bacımın dərs oxumadıqlarının səbəbini ondan soruşdum. Ustadın dediyinə görə qadınlara aid olan elmdən söz gedəndə, Quran elmi nəzərdə tutulur, özü də Yusif surəsini oxumamaq şərtilə. Çünki qadının ruhu fəsada sarı meyl edəndir. Onun fikrincə qadına elm öyrənmək gərəkməmişdir, hətta Quranın Yusif surəsinə də baxamamalıdır..."

Onu qeyd edək ki, məqalədə Ziyəddin Məhərrəmovun "İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit", Mirzə İbrahimovun "Cənubi Azərbaycan Ədəbiyyatı Antologiyası" (2-ci cild Elm nəşriyyatı. 1983), Cabbar Bağçabanın "Seçilmiş əsərləri şeirlər (Tərtibçi və ön söz. Z.Əkbərov - Bakı. Yazıçı) mənbələrindən istifadə edilib. Bildirək ki, bu mənbələr olduqca maraqlıdır və şair-pedoqoq barədə müfəssəl məlumat əldə etməyimizə kömək edir.

### Bağçaban niyə Tehrana gedib?

Tədqiqatçıların verdikləri məlumatlarda qeyd edilir ki, Birinci dünya müharibəsi illərində daşnakların azərbaycanlılara qarşı törətdiyi dəhşətlərə görə minlərlə azərbaycanlı kimi Cabbar Bağçaban da İrəvanı tərk edir



və Türkiyəyə gedir. Bir müddət Türkiyənin İğdır vilayətində dövlət məmuru kimi çalışsa da, müharibədən sonra İrəvana qayıdır, həyat yoldaşı Səfiyə xanım Mirbabayi ilə birlikdə İrəvan ətrafındakı Noraşen kəndində məktəb qurur. Ancaq kasıblıq və xəstəlik üzündən bu məktəbi saxlaya bilmir. Valideynlərini itirməsi, qıtlıq, yolxucu xəstəliklər, vətəndaş müharibəsi onu 1919-cu ildə 34 yaşında ikən arvadını da götürüb ağır vəziyyətdə İrana üz tutmağa məcbur edir. Yolda ayaqlarını soyuq aparır və ölümdən qurtulmaq üçün həkimlər ayaq barmaqlarını kəsməli olurlar. İrana gəldikdən sonra uzun müddət iş axtaran Bağçaban axır ki, Mərənddə Mirzə Qafarxan Mükafatın yaratdığı "Əhmədiyyə" məktəbində ibtidai sinif müəllimi kimi işə düzəlir. Burda işlərkən o azərbaycan dilində "Xor-xor" adlı uşaq tamaşası yazır və məktəbin həyətində uşaqlar tərəfindən tamaşa oynanılır.

Tədqiqatçılarına görə, Bağçabanın pedaqoqikada öz metodu varmış ki, o bunu yeni metod adlandırırdı. O köhnə məktəblərdəki "əti sizin, sümüyü bizim" prinsipini cinayət hesab edir, əksinə uşaqlara ürək yandırıb sevgi göstərərək başa salmağı düzgün hesab edirdi. Məsələn, o öz cibindən kağız və boya alaraq uşaqlara paylayır, onlara rəssamlığı öyrədir, ilk dəfə olaraq uşaqların təlimində tamaşadan istifadə edir, məktəbdə idman üçün vaxt ayırırdı və əlbəttə yenilikçi fəaliyyəti üzündən sıx-sıx təzyiqlərə də məruz qalırdı.

### Təbrizin Maqsudiyyə məhəlləsində uşaq bağçası...

Cabbar Bağçabanın yenilikçi fəaliyyəti çox keçmir ki, Təbriz və Şiraz maarif idarələrinin diqqətini çəkir və onun yeni təlim metodu ilə tanış olmaq, uşaq tamaşalarını görməkdən ötrü 1920-ci ildə Təbrizə dəvət edirlər. Təbrizə gələn Bağçaban burda "Daneş" adlı məktəbdə bir müddət işləyir və onun metodu o dövr İran Azərbaycanının maarif idarəsinin müdiri Əbulqasim Fiyuzatın xoşuna gəlir. Ona uşaq baxçası açmağa icazə verilir. O dövrdə Təbrizdə təkcə dini azlıqların, xristian və yəhudilərin uşaq baxçaları vardı, Bağçaban həmin dövr İranın Maarif Nazirliyinin təzyiqlərinə baxmayataq 1924-cü ildə Təbrizin Maqsudiyyə məhəlləsində İranın ilk uşaq bağçasını açır. Bu İran tarixində qız və oğlan uşaqlarının birgə tərbiyə olunduğu ilk bağça idi. Bağçabanın oğlan-qız baxçası və məktəbi tezliklə Təbriz xalqını uşaqlarını məktəbə qoymağa həvəsləndirmişdi. Bu məktəbdə Bağxaban uşaqları gəzintiyə aparır, tamaşa göstərməkləri üçün pyeslər yazır, səhnələr qurur, nağıl oxudur, uşaqlar üçün yazdığı şeirləri onlara əzbərlədirdi.

Tədqiqatçılar vurğulayırlar ki, 1932-ci ildə Bağçaban ailəsi ilə birlikdə Tehrana köçür. Onun Təbrizdən çıxmasının səbəbi o dövrdə İran Azərbaycanına maarif müdiri təyin olumuş şovinist doktor Əhməd Mövsüninin Təbriz məktəblərində tələbələr və müəllimlərin farsca danışmasını tələb etməsi olub.

### Lal-kar uşaqlar üçün məktəb açır

1933-1935-ci illərdə Tehranda açdığı karlar və lallar məktəbində işləyir, fiziki cəhətdən qüsurlu olan uşaqlara kömək edən bir cihaz düzəldir. Bundan on il sonra, 1943-cü ildə o Tehranda "Lal-kar uşaqları himayə cəmiyyəti"ni də yaradır. Pedaqoji fəaliyyətlə məşğul olan Cabbar Əsgərzadə 1943-cü ildə müəllimlər üçün məcmuə nəşr etdirir. "Zəban" adlı pedaqoji jurnal nəşr etmiş (1942), eyni zamanda ictimai, ədəbi və pedaqoji fəaliyyətini davam etdirmişdir. Onun çoxcəhətli yaradıcılığı - pedaqogika, poeziya, incəsənət, musiqi, mədəniyyət və səhiyyə ilə sıx bağlı idi. Ərəb, fars və rus dillərini mükəmməl bilmiş, xarici ölkə xalqlarının seçmə poeziyasından tərcümələr etmişdir. Əsərlərini Azərbaycan və rus dillərində yazmışdır. Lirik şeirlərini C.Əsgərzadə, Aciz, Bağçaban, satirik şeirlərini isə "Məhkəmə pişiyi", "Noxtalı", "Leyləyin yuvadibisi", "Molla haray" və s. imzaları ilə çap etdirmişdir. Onun kiçik yaşlı uşaqlar və məktəblilər üçün yazdığı mənzum hekayələri də nəşr olunmuşdur. Maarif sahəsindəki xidmətlərinə görə Tehran Universiteti ona professor adı vermişdir.

Böyük novator, işıqlı ziyalı, dilimizin, mədəniyyətimizin, pedaqoji fikrimizin alovlu təbliğatçısı Cabbar Əsgərzadə 1966-cı ilin payızında Tehranda vəfat edib.

İrəvanın görkəmli oğullarından biri olan Cabbar Bağçabanın həyatı, fəaliyyəti, keşməkeşli ömür yolu barədə danışdıq. Əlbəttə, bu cür böyük ziyalını yenidən xalqımızın yaddaşına qaytarmaq borcumuzdur...

*İradə SARIYEVA*